# ABDULLA QURBANİ UCALIĞI



*(Əvvəli ötən saylarımızda)*

**Fəridə Ləman - şairə:** - Abdulla müəllim burda ona verilən şərəfli adların hər birinə yetərincə layiq olan qüdrətli şəxsiyyətdir. Mən də öz aləmimdə oturub fikirləşmişəm ki, milli təəssübkeş adı da Azərbaycan hərb tarixi salnaməsinə ən parlaq səhifələr yazan Abdulla müəllimə çox yaraşardı. Bir bayatıda deyilir:

Vətən heey.
Yollar üstdə bitən hey.
Vətənim dar günündə
Köməyinə yetən hey.
Ürəyimə dağ çəkib
Qarış-qarış itən hey.

Mən də belə demək mümkünsə milli vətənpərvərlik işinə öz töhfəsini verməyə çalışan qələm adamlarından biriyəm. Təvözkarlıqdan kənar olsa da qeyd etməliyəm ki , milli qəhrəmanlarımıza və şəhidlərimizə həsr edilmiş neçə-neçə kitabın və onlarca məqalənin müəllifiyəm. Məncə bu sahədə çalışanlar arasında Abdulla Qurbaninin əməyi başqalarına nümunə göstərilməyə daha çox layiqdir. Belə ki , o ,bir peşəkar qələm adamı kimi yurdumuzun çağdaş hərb tarixi salnaməsini yaratmaqla məşğuldur.

Zəminə Xınalı - hərbçi-şairə: - Bayaq professor Asif Rüstəmli burda çox maraqlı fikirlər və təkliflər səsləndirdi. Bir neçə ay bundan əvvəl biz bu salonda çox hörmətli generalımız Yusif Axundzadənin yetmiş illik yubileyini onun adına layiq bir tərzdə qeyd elədik. Sonra əziz dostumuz, qardaşımız Şahin Musaoğlu ilə birgə Abdulla Qurbaninin altmış illik yubileyinə həsr olunmuş tədbir keçirmək istədik. İlahi, insan nə qədər səmimi, alicənab, təvazökar olarmış! Təsəvvür edin ki, öz çalışdığı sahədə əvəzsiz bir mütəxəssis kimi formalaşmış bu görkəmli şəxsiyyət utancaq bir tərzdə tədbirin keçirilməsinə etiraz etmək istəyirdi. Nəhayət biz çətinliklə də olsa istəyimizi reallaşdıra bildik. Yalnız qəzetdə elan verib bütün dünya - aləmi ayağa qaldırdıqdan sonra Abdulla müəllimin razılığını ala bildik. Əgər kimsə, haçansa Abdulla müəllimin böyük zəhmətlərini danmaq fikrinə düşərsə, o adam yox, nankordur. Bir gün gördüm ki, əziz dostumuz, polkovnik leytenant Zöhrab İmanquliyev xeyli azuqə, bar-barxana toplayıb ki, gəlin Abdulla Qurbaninin səsinə səs verib döyüş bölgəsindəki əzizlərimizə baş çəkməyə gedək. Mən xüsusi qürur hissi ilə qeyd etməliyəm ki, Abdulla müəllimdən hər zaman daha çox barıt qoxusu, səngər qoxusu gəlir.

**Abdulla Qurbani:**

Şəhidlər Xiyabanı,
Ağbirçək anaya bax.

Vaxtsız qara geyinən
O yalqız sonaya bax.
Tabut üstdə bayrağa,
Ulduza bax, aya bax.

Qəlblərə, ürəklərə
Köçənlərim var mənim.
Vətən deyib canından.
Keçənlərim var mənim.
Biz ölsək də, yaşasın
Ana Vətən əbədi.

Sil gözünün yaşını,
Qaragilə, bu nədir.
Torpağı ana kimi
Qucanlarım var mənim.
Vətən deyib canından
Keçənlərim var mənim.

Bu gün, sabah gəlirik,
Möhkəm dayan, Qarabağ,
Lalələrdən don geyib
Ala boyan, Qarabağ:
Murov dağda qaya daş.
Hanı Babək, haqq yolunda qoya baş
Yaltaqlıqda ad çıxarıb bir oğraş.

**Maşallah Məftun:** - Əgər Azərbaycanın dövlətçiliyinə, Ulu Öndərimizin ölməz ruhuna və cənab Prezidentimizə qəlbən beş nəfər ən sadiq şəxsiyyət varsa, bunun biri də heç şübhəsiz ki, əziz dostumuz Abdulla Qurbanidir. Bu məclisdə böyük alimlər, görkəmli şəxsiyyətlər iştirak etdiyi üçün mən burdan Azərbaycan Dövlət Televiziyasının rəhbərliyinə səslənirəm: necə olur ki, ucuz şou əhlinin nümayəndələrini saatlarla təbliğ edib onlara efir vaxtı ayıra bilirsiniz, amma yüksək hərbi vətənpərvərlik tərbiyəsinə səfərbəredici gücə, qüdrətə köklənmiş bu tədbiri çəkib ekrana çıxara bilmirsiniz. Sözümün bu məqamında beynimdə bu misralar dolaşır:

Dağlar yenə güllənəcək,
Çaylar yenə sellənəcək,
Ölsəm ruhum dillənəcək,
Vətən, sənin əsgərinəm,
Vətən, sənin əsgərinəm.

**Abdulla Qurbani:**

Yenə çaylar axır, ana,
Bulud gözün sıxır, ana.
Soltanbəyli yol gözləyir,
İldırımlar çaxır, ana.

Dağlar, dərələr kemişəm,
Dostu düşməndən seçmişəm.
Mən bu gecə röyalarda
Qırxbulaqdan su içmişəm.

Sinəm olub ulduz-ulduz,
Sevən odlu ürək ilə
Qara quzeydən gəlirəm.
Almalıda bağlar xəzan,
Kimdir adın qara yazan.

Ocaq sönüb, hanı ocaq
Gözlə Həzi, Babək ilə
Qara quzeydən gəlirəm.
Hədər getməz bircə gülləm,
Ellə ağlayaram, gülləm,
Vətən, sənin əsgərinəm,
Çağır, səslə , yenə gələm.

Bundan sonra ziyafətdə prof. Asif Rüstəmli yenə danışdı "Çanaqqala" restoranında.

**Asif Rüstəmli:** - Abdulla Qurbani Müdafiə Nazirliyində hansı vəzifədə çalışmasına baxmayaraq, ondan ötrü yaş senzi olmamalıdır. Bəlkə də özü deyə bilər ki, gördüyüm işlərin müqabilində mənim də fəxri istirahətə səlahiyyətin çatır. Ölkəmizin, cəmiyyətimizin, vətənimizin indiki gərgin, məsuliyyətli durumunda Abdulla Qurbanini əvəz edə bilən şəxsiyyətlər yetişdirə bilməmişiksə, onu istirahətə, təqaüdə göndərməyə mənəvi hüququmuz yoxdur. Çünki mən bu gün fəaliyyət göstərdiyi sahədə ömrünü, yaradıcı fəaliyyətini bütünlükdə xalqına həsr edən və bu sahədə çox ciddi uğurlara imza atan ikinci bir şəxs tanımıram. Bu gün onun kimi elə bir ikinci, şəxs tapmaq mümkün deyil ki, toyunu etməyə hazırlaşdığı cavan oğlunu şəhid kimi qara torpaqlara tapşıran ananın qəlbindəki, gübarı, kədəri qürurla, iftixar duyğusu ilə əvəz etməyi bacarsın. Biz onun simasında Vətənin də bütövlüyünü görürük. Bu adamın hər yazısı, hər kəlməsi, hər sözü, hər marşı böyük Qələbəyə getdiyimiz yolda səfərbəredici qüdrətə malikdir.

**Abdulla Qurbani:** - Elə olub ki, mən bir həftə ərzində Murovdağda otuz nəfər şəhidin cəsədini tapıb bir yerə toplamışam. Baxırdım ki, bir tərəfdən kəskin qoxu gəlir, digər tərəfdə qarğa-quzğun yığılıb. Beləcə gedib şəhid cəsədlərini aşkar edirdim. Mən həmin şəhidlərin dilindən belə bir şeir yazmışam.

Düşmənimdən bac almışam
Dağlarda məskən salmışam,
Ağlama, anam, ağlama.

Yaxınam haqqa, Allaha,
Murovun oğluyam daha
Ümid bağla xoş sabaha,
Ağlama, anam, ağlama.

Qərib quzu tək mələrəm,
Leysan olub nur ələrəm,
Gələrəm, yenə qələrəm.
Ağlama, anam, ağlama!

Nəğmə ollam dodaqlarda,
Bülbül ollam budaqlarda,
Layla ollam bu dağlarda,
Ağlama, anam, ağlama!

Bu məclisə iştirak edən Elşən qardaşımız 1973-cü ildə anadan olub, polkovnik leytenantdır. Murovda ağır yazalandığı üçün bir ayağını itirib. Yaralı ikən onu döyüş bölgəsindən çıxarıb xəstəxanaya gətirən adam mən olmuşam. Elşən anadan olanda "Bir qalanın sirri" filmi kifayət qədər məşhur idi. Bununla da



əmisi qızı olan həyat yoldaşı ilə 2-3 gün yaş fərqi var. Birinin adını Elşən, o birinin adını isə Mətanət qoyublar. Bir gün bunlarla Lənkərana getmişdim. Orda gördüm ki, bu məkanda YAP Funksionerləri üçün şəfalı bir istirahət zonası fəaliyyət göstərir. Ondan sonra gəldim ki, YAP-ın icra katibi Əli Əhmədov partiyanın böyük tədbirini keçirir. Orda dedim ki, Bakının ortasında "Nizami" Kino Mərkəzində igid döyüşçülərimizin aprel döyüşlərindəki rəşadəti barədə xoş sözlər demək o qədər də çətin deyil. Yaxşı olardı ki, cəbhə bölgəsinə gedib igid əsgərlərimizlə canlı şəkildə ünsiyyət qurasınız. İnsafən Əli müəllim mənim təklifimi çox böyük razılıqla qarşıladı. Ertəsi gün köməkçisi Mahir zəng edib dedi ki, Əli müəllim cəbhə bölgəsinə gedəcəyimiz dəqiq vaxtı bilmək istəyir. Dedim ki, günü sabah yola düşə bilərik, amma əliboş getmək olmaz. Xülasə bunların boynuna qoyub biri 150 dollardan otuz qol saatı, yeddi dənə bahalı televizor və digər zəruri ləvazimatlar aldırdım. Beləcə gəlib Tərtərə, döyüş bölgəsinə yetişdik. Hərbi hissədən bunların hərəsinə bir kaska alıb verdim. Ağac kölgəsində nahar edərkən Əli müəllimdən soruşdum ki, bu yay YAP üzvləri harada nahar edəcək. Qayıtdı ki, kim harda istəsə, orda da dincələcək. Dedim, yox, Əli müəllim, məndə olan məlumata görə YAP-ın aparatı bu yay Lənkəran rayonundakı istirahət zonasında dincələcək. Nə olar, qoy bu yay onlar aprel döyüşləri zamanı əlil olmuş döyüşçülərimizin xatirinə o istirahətdən imtina etsinlər.

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 13-cü səhifədə)*

Xülasə, bunların boynuna qoydum və yüz əlli nəfər müharibə əlilini, Qarabağ döyüşçüsünü dincəlmək üçün həmin istirahət zonasına gətirdik. Ətraf zonaların icra başçılarına zəng etdim. Sağ olsunlar, hərəsi öz imkanı daxilində səxavətini və ləyaqətini nümayiş etdirdi. Lerikin icra başçısı daha böyük aktivlik nümayiş etdirdi. Təsəvvür edin ki, rayonun veteranları bizim qazilərin pişvazına zurna- balabanla çıxmışdı. Bunlar üçün gözəl bir konsert də təşkil etmişdik. Elşənlə Mətanət də o konsertdə iştirak edirdi. Müğənni "Məhləmizdə bir quyu var, əmiqızı" mahnısını oxuyanda gördüm ki, Elşən qəhərdən doluxsunub. Axı, o da həyat yoldaşı Mətanətlə əmioğlu-əmiqızıdır. Yumruğunu hirslə stola vurub dedi ki, Abdulla , hər il ad günüm keçiriləndə biz bu mahnının sədaları altında rəqs eləmişik. Sonra "Ankara bağları" mahnısı səslənəndə isə Elşən dözə bilməyib əməlli-başlı hönkürdü. Qayıtdı ki , Zərdabda bu mahnı çalınan zaman məndən yaxşı oynayan yox idi. Amma indi mən tək ayaqla o rəqsi də ifa edə bilməyəcəyəm. Qəhrəmanlıq və zəfər tariximizə qızıl hərflərlə daxil olan aprel döyüşləri zamanı Elşən bir qıçını itirmişdi. Aradan aylar, həftələr keçsə də bir qıçını itirməsini Elşən anasından gizlətmişdi. Əlləşib-vuruşub ona pratez təşkil elədik. Sonra Elşənlə birgə onun anası yaşayan evə getdik. Anası Elşənin başına pərvanə kimi dolanırdı. Ana ürəyi həssas olur, elə bil ki, ürəyinə nəsə dammışdı. Gəlib əlini üstdən protezə sürtəndə Elşən yenə anasını aldadıb dedi ki, ay ana, narahat olma, yaralandığı üçün bu ayağım hələ də gipsdən azad olmayıb. Həmin Zərdab rayonunda yeganə oğul övladını aprel döyüşlərində itirmiş bir ananın görüşünə getdim. Onunla xeyli söhbət elədim. Axırda ana boynumu qucaqlayıb qəhrəman övladının adı və əməli ilə iftixar duyduğunu bildirdi. Biz həmçinin rayonda Elşənin torpaq məsələsini, ev məsələsini həll edib yoluna qoyduq. Sizi inandırıram ki, bu cür qəlbi yaralı insanlara maddi və mənəvi cəhətdən dayaq durub təsəlli verməyi bacarmaq bütöv bir Həcc ziyarətinin ayinlərini icra edib başa vur-

# ABDULLA QURBANİ UCALIĞI

mağa bərabərdir. Mən sizin hamınıza minnətdaram.

**Maşallah Məftun:** -Bir gün Abdulla müəllim mənə dedi ki, səni bu gün Məmməd Arazın evinə aparacağam. 1995-ci il dekabrın 3-ü idi. Böyük şair Abdullanı görəndə bir az havalandı.

**Abdulla Qurbani:**-Maşallah, icazə ver, burasını özüm danışım. Gülxanım bacı bizi görəndə xeyli sevindi və dedi ki, elə bil bu kişinin başına hava gəlib, deyir ki, Dağıstandan 65 illik yubileyim münasibəti ilə mənə hədiyyə göndərilmiş yapıncını cəbhə bölgəsindəki əsgərlərə aparacağam. Özünüz də yaxşı bilirsiniz ki, ömrünün son illərində Məmməd müəllimin səsi batdığı üçün bir az aşağı tonda, bir az da qüsurlu danışırdı. Bu yerdə o özü Güləxanım bacının sözünü kəsdi və soruşdu ki, Ay Abdulla, çöldəki yağışdan Prezident aparatının damına da yağırmı? Dedim ki, yağır, Məmməd müəllim. Bu yağış şəhərin hər yerinə, o cümlədən bölgələrə də yağır. Belə məqamlarda, yəni ki, qış aylarında əksər dağlıq bölgələrə həm də qar yağır. Sonra Məmməd müəllim soruşdu ki, bizi qoruyan əsgər səngərlərinin üstünə şifer, çadır çəkilibmi? Dedim ki, yox, Məmməd müəllim, qar da, yağış da səngərlərin içinə, əsgərlərin başına yağır. Sonra Məmməd müəllim dedi ki, Abdulla, mən istəyirəm ki, biz əsgərlərin görüşünə gedək və mənim apardığım bir yapıncı heç olmasa bir əsgəri və ya bir zabiti gecə-gündz qardan, yağışdan, soyuqdan qorusun. İndi özün de, mənim başıma hava gəlib, yoxsa Gülxanımın? Xülasə, mən Məmməd Arazı cəbhə bölgələrinə apardım, Aslanbəyli, Şükürbəyli kimi ərazilərdə olan hərbi hissələri gəzdirdim. Nəticəsi də bu oldu ki, Məmməd Arazla görüş keçirilən yerdə qara mərmərdən Xatirə lövhəsi qurdurduq və döyüşlərdə xüsusilə fərqlənən tank ekipajlarından birinə dahi Məmməd Arazın adını verdirdim. Təsəvvür edin ki, həmin ekipajda vuruşan əsgərlərdən birinin döyüş vaxtı yaralandığı üçün nitqi tutulmuşdu və müalicə üçün xəstəxana gətirilmişdi. Mən xəstəxanaya gəldim və palataya girib qışqırdım ki, "Məmməd Araz tankının ekipajı döyüşə hazırdırmı?" Əsgər necə həyəcanlandısa "hazırıq" deyə bağırdı və nitqi açıldı. Maşallah, sağ olsun ki, bəzi əlamətdar məqamları mənə xatırlatdı.

**Maşallah Məftun:** - Mən deyəcəyəm, amma siz inanmayacaqsınız. Məmməd müəllimin müqəddəs ocağında keçirdiyimiz o tarixi görüşdən bizi az qala 22 illik bir zaman fasiləsi ayırır. Gülxanım ana gözəl bir süfrə açmışdı və Məmməd Araz kimi dahi bir şəxsiyyət mənim kimi adi hərbçiyə, adi qələm adamına konyak süzürdü. O məqamları xatırlayanda indi də ürəyim qürurla dolur. Hörmətli akademikimiz Vəli müəllim , bu gün mən əziz dostum, təvazökar qardaşım, qələm dostum və səngər silahdaşım Abdulla Qurbanini özüm üçün yenidən kəşf elədim. Valideynləri Abdullanı dünyaya gətirib böyütdülər, amma onu Azərbaycan xalqına, Azərbaycan ordusuna bəxş edib şəxsiyyət kimi formalaşdıran heç şübhəsiz ki, Ümummilli liderimiz Heydər Əliyev oldu.



***Bayram AFURCALI***